**UOT: 102** **Səh. (41-51)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.41**

# XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ ÖZÜNÜDƏRK PROBLEMİ MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ NÜMUNƏSİNDƏ

**Əli Abasov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
"Müasir fəlsəfə problemləri" şöbəsinin müdiri, f.e.d., professor
e-mail: kila50@mail.ru
https://orcid.org/0000-0002-4528-5797

**Mahrux Nəcəfli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
"Müasir fəlsəfə problemləri" şöbəsinin böyük elmi işçisi, f.ü.f.d.
e-mail:mahru.abbas@gmail.com
https://orcid.org/0000-0002-4024-3088

## Xülasə

Məqalədə əsas məqsəd milli özünüdərk problemi Azərbaycan Demokratik Cümhuriyyətinin qurucularından M.Ə. Rəsulzadənin baxışlarının inkişafı kontekstində nəzərdən keçirilməsidir.
**İstifadə edilən metodlar və metodologiya:** Məqalədə tarixi-xrononloji təhlil, müqayisəli təhlil, sosial-fəlsəfi təhlil, təsvir və digər ümumelmi metodlardan istifadə edilmişdir.
**Məqlədə yenilik**: Qeyd edilir ki, özünüdərk təkamül prosesində müsəlmanlar-türklər-azərbaycanlılar xətti üzrə baş verir və millətin konfessional, etnik və siyasi kimliyini əhatə edir. Bildirilir ki, milli özünüdərkdə müxtəlif amillərin rolunu araşdıran Rəsulzadə din, dil kimi faktorlara vurğu edir, panislamizm, panturanizm kimi ideyaları araşdırır, onların mədəni kimlik üçün əhəmiyyətini üzə çıxarır.
**Əldə olunan əsas nəticələr**: Məqalənin sonunda Rəsulzadənin milli kimlik konsepsiyası azərbaycançılıq ideologiyası formasında təzahür etdiyi bildirilir.
Qeyd edilir ki, Rəsulzadə milli özünüdərk faktoru kimi dil məsələlərinə həsr olunmuş xeyli məqalə çap etdirir ("Sadə dil- yeni dil", "Yeni dlçilər- türkçülər" və s.). Bu nəşrlərdə o, millətin formalaşması üçün danışıq və yazılı dil arasında uçurumu aradan qaldırmanın zərurətinə işarə edir.
Rəsulzadə "İqbal" qəzeti, "Şəlalə", "Bəsirət", "Dirilik" jurnallarında nəşr etdirdiyi məqalələrdə elmi olaraq əsaslandırır ki, milləti din yox, dil və mədəniyyət birləşdirir, müsəlmanlıq milli yox, dini kateqoriyadır.
Yekun olaraq bildirilir ki, Məhəmməd Əmin Rəsulzadə Azərbaycan tarixində milli şüurun nəzəri inkişafını ümumiləşdirərək, onu ilk müstəqil bütöv Şimali Azərbaycan əsasına oturtduran şəxsiyyətdir.
**Açar sözlər:** M.Ə. Rəsulzadə, Azərbaycan Demokratik Cümhuriyyəti, milli özünüdərk, panturanizm, panislamizm, Füzuli, dil, azərbaycançılıq

# IN THE EXAMPLE OF M.A. RASULZADE, THE ISSUE OF NATIONAL SELF-IDENTIFICATION IN AZERBAIJAN AT THE END OF THE 19TH CENTURY AND THE BEGINNING OF THE 20TH CENTURY

**Ali Abbasov**
Institute of Philosophy and Sociology of ANAS
Head of the Department of "Problems of Modern Philosophy", Ph.D., Professor
e-mail: kila50@mail.ru
https://orcid.org/0000-0002-4528-5797

**Mahrukh Najafli**
Institute of Philosophy and Sociology of ANAS
Senior Researcher of the Department of "Problems of Modern Philosophy", Ph.D.
e-mail: mahru.abbas@gmail.com
https://orcid.org/0000-0002-4024-3088

**Summary**

The main purpose of the article is to consider the problem of national self-awareness in the context of the development of the views of one of the founders of the Azerbaijan Democratic Republic, M.A. Rasulzadeh.
**Methods and methodology used:** The article uses historical-chronological analysis, comparative analysis, socio-philosophical analysis, description and other general scientific methods.
**Innovation in the article:** It is noted that self-awareness occurs along the line of Muslims-Turks-Azerbaijanis in the evolutionary process and encompasses the confessional, ethnic and political identity of the nation. It is stated that Rasulzadeh, who examines the role of various factors in national self-awareness, emphasizes factors such as religion and language, examines ideas such as pan-Islamism and pan-Turanism, and reveals their importance for cultural identity.
**Main results obtained:** At the end of the article, it is stated that Rasulzadeh's concept of national identity manifests itself in the form of the ideology of Azerbaijaniism.
It is noted that Rasulzadeh published many articles devoted to language issues as a factor of national self-awareness ("Simple language - new language", "New language- Turkists", etc.). In these publications, he points out the necessity of bridging the gap between spoken and written language for the formation of the nation.
In his articles published in the "Iqbal" newspaper, "Shalale", "Basirat", "Dirilik" magazines, Rasulzadeh scientifically substantiates that language and culture, not religion, unite the nation, and that Islam is a religious, not a national category.
In conclusion, it is stated that Mahammad Amin Rasulzadeh is the figure who summarized the theoretical development of national consciousness in the history of Azerbaijan and laid the foundation for the first independent whole of Northern Azerbaijan.
**Key words:** M.A. Rasulzade, Azerbaijan Democratic Republic, national identity, Pan-Turkism, Pan-Islamism, Fuzuli, language, Azerbaijanism

# ПРОБЛЕМА НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВЕКОВ НА ПРИМЕРЕ М. Э. РАСУЛЗАДЕ

**Али Абасов,**
доктор философских наук, профессор,
заведующий отделом «Проблемы современной философии»
Института Философии и Социологии НАНА
электронная почта:kila50@mail.ru
https://orcid.org/0000-0002-4528-5797

**Махрух Наджафли,**
кандидат философских наук,
старший научный сотрудник отдела «Проблемы современной философии»
Института Философии и Социологии НАНА
электронная почта:mahru.abbas@gmail.com
https://orcid.org/0000-0002-4024-3088

**Аннотация**

Основная цель статьи – рассмотреть проблему национального самосознания в свете творчества одного из оснавателей Азербайджанской Демократической Республики М.Э. Расулзаде.
**Методы и методология исследования**: в статье использованы историко-хронологический анализ, сравнительный анализ, социально-философский анализ, описание и другие общенаучные методы.
**Научная новизна:** отмечается, что самосознание происходит по линии мусульмане-тюрки-азербайджанцы в эволюционном процессе и охватывает конфессиональную, этническую и политическую идентичность нации. Сообщается, что Расулзаде, исследующий роль различных факторов в национальном самосознании, подчеркивает такие факторы как религия и язык, рассматривает такие идеи, как панисламизм и пантуранизм и их значение для культурной идентичности.
**Основные выводы:** в конце статьи утверждается, что концепция национальной идентичности Расулзаде проявляется в форме идеологии азербайджанства.
Отмечается, что Расулзаде публиковал серию статей о языке («Простой язык – новый язык», «Новый язык – тюркисты» и т. д.). В статьях, опубликованных в газете «Игбал» и журналах «Шалала», «Басирате» и «Дирилик», Расулзаде научно обосновывал, что нацию объединяют язык и культура, а не религия, и что ислам — это религиозная, а не национальная категория.
**В заключение** отмечается, что Маммед Эмин Расулзаде, обобщивший теоретическое развитие национального самосознания, является одной из личностей, которым принадлежат большие заслуги на пути реализации идеала независимости и единства в Азербайджане.
**Ключевые слова:** М.Э.Расулзаде, Азербайджанская Демократическая Республика, национальное самосознание, пантуранизм, панисламизм, Физули, язык, азербайджанство

## GİRİŞ

Hər bir ölkənin tarixində inkişaf yolunu seçməsində taleyüklü əhəmiyyət daşıyan dövrlər olur: din və ya ideologiya seçimi, hakim sülalələrin dəyişməsi, müharibə və inqilablar, siyasi, iqtisadi, sosial həyat yolunun radikal transformasiyası... Amma bu sadaladıqlarımız arasında başlıca olanları seçməyə çalışsaq- adını çəkmədiklərimiz də daxi olmaqla

xalqların taleyində böyük dəyişmələrin sistem başlanğıcı milli özünüdərkin formalaşma, cəmiyyətin özünün identifikasiya və inkişaf modelləri arayışı dövrünə təsadüf edir. Millət formalaşmış dünyagörüşü prioritetlərindən praktik olaraq faydalana bilməli, dünya xalqları və dövlətləri arasında öz yerini tapmalıdır.

XX əsrin əvvəllərində Azərbaycanda milli özünüdərkin formalaşmasında, cəmiyyətdə özünü identifikasiya modellərinin inkişafında milli dövlətçiliyin nəzəriyyəçisi və praktiki Məhəmməd Əmin Rəsulzadənin çox böyük rolu olmuşdur.

M.Ə. Rəsulzadə elmi-siyasi və sosiomədəni əsərlərində Azərbaycan xanlıqlarının tarixi inkişafı və onların məskunlaşmasının ziddiyyətli xüsusiyyətlərinə nəzər salan ilk müəlliflərdəndir. Belə ki, o, "Azərbaycan Respublikası" məqaləsində yazır: "öz "mən"ini hələ dərk etməmiş, öz milli simasını bəlləməmiş Azərbaycan xanlıqları büsbütün İran mədəniyyəti və ideyalarının təsiri altındaydı, müasir ordu ilə ölkəyə gələn rusların gücü qarşısında geri çəkilsələr də xalq öz qəmini və sevincini öz şair, aşıq və dərvişləri vasitəsi ilə fars dilində olan ədəbiyyatda təbliğ edir və öz ağlı əsasında özünü tam hiss edir." [11,s.23]

Etiraf etməliyik ki, o dövr elitası- aristokratlar və ruhanilər "farsca təhsil almış, fars kimi düşünür və hətta özünü fars hesab edirdi. Xalqın taleyini əlində saxlayan aristokratlar, eləcə də elə bu xalqın mənəviyyatını özünə tabe etmiş ruhanilər eyni ruhlu, eyni düşüncəli və eyni niyyətli adamlar idi.

Nəticədə maraqlı xalq meydana çıxmışdı: bir dildə danışan, başqa dildə yazan" [11, s.24].

Xüsusi qeyd etməliyik ki, Rəsulzadə XVI əsr şair və mütəfəkkiri M.Füzulinin türk identikliyinin formalaşmasında roluna diqqət yetirən ilk müəllif olmuşdur. Məhz Məhəmməd Füzuli müsəlman ədəbiyyatının əsas dilini dəyişməyi bacardı.

Bu səbəbdən Rəsulzadə Füzulini "azərbaycanlılarda poeziyanın atası" ünvanını almış şair kimi tək Azərbaycanın yox, bütövlükdə "türk dünyasının dahi şairi" hesab edir.

Rəsulzadə Azərbaycan ədəbiyyatının tarixi inkişafına münasibətdə yazır: "...azərbaycanlılar əvvəlcə farsca yazırdılar; daha sonra Füzuli və həmməsləkləri yerli şivədə yazmağa başlamaqla davamlı bir dövr açdılar"...Nəhayət, üçüncü dövr: Azərbaycan ədəbiyyatı qərb həyat və düşüncəsinin təsiri altına düşərək, türk ədəbiyyatından ruhlanaraq müasir ədəbi türk dilini istifadə etməyə başladı. Bu dövr şairləri, bir tərəfdən, rus, digər tərəfdən türk ədəbiyyatının təsiri altına düşdü [11, s.25-26]. Bu fikirlər Azərbaycan dövlətçiliyində milli identikliyin formalaşıb inkişaf etməsində dilin başlıca rolunu üzə çıxarmağa imkan yaratdı. Rəsulzadə "Dil- vacib ictimai faktor" məqaləsində yazır: "İnsanların ünsiyyətində iki faktor önəmli rol oynayır- din və dil. Din müxtəlif dillərdə danışan adamları birləşdiri bilir, dil isə ancaq bu dildə danışan adamları" [9].

XVII əsrin sonu – XIX əsrin əvvəlləri Azərbaycan tarixində ölkənin Türkiyə və İrandan müəyyən dərəcədə asılı olmadığı xüsusi dövrdür. Azərbaycan xanlıqları bu dövrdə möhkəmlənməyə başlayır. Bu dövrdə yerli, demək olar ki, milli hakim sülalələrin formalaşması baş verir- bu proses çox halda şiə-sünnü qarşıdurması pərdəsi altında gerçəkləşirdi.

XIX əsrin əvvəlləri Qafqazda rus kolonializminin fəal genişləndiyi dövr kimi tarixin vacib məqamıdır və diqqətli təhlil tələb edir. Məhz bu dövrdə üstün türk etnik başlanğıcla, islam dünyaseyrinin şiə qolu və üçbucağın son tərəfi- rus (qərb) modernizminin təsiri ilə xalqın özidentifikasiyası baş verir. Bu ictimai-siyasi transformasiya orta əsrlər İran və Türkiyəsi ilə sağollaşmadan xəbər verir.

Azərbaycan maarifçilərinin birinci dalğası- A.Bakıxanov, M.Ş.Vazeh, Q. Zakir, M. Kazımbəy, M.F. Axundov hər biri özünəməxsus şəkildə radikal və ya tədrici islahatlar yolu ilə Azərbaycanın gələcəkdə Avropa yolunu hazırlamışdılar. Əlbəttə, onların hər biri, eləcə də daha sonrakı davamçıları- H.Zərdabi və onlarca başqa maarifçilər avropalaşma modellərini fərqli yozumlayırdılar; kiminçünsə bu, daha çox texniki modernləşmə prosesi idi, kimsə sosial və siyasi dini doktrinalara diqqət yetirərək "əsl İslamı" dirçəltməyə çalışır, bir başqası üçün milli özünüdərkin formalaşması daha önəmli məsələ idi. Elələri də vardı ki, ölkənin sonrakı inkişafı və xalqın özünüdərki üçün müstəqilliyi vacib şərt hesab edirdilər.

"Azərbaycan maarifçiliyi" adı almış bu dövrün mənəvi axtarışlarının yönü açıq-aşkar dini deyildi. Dünyavi demokratik ideologiya bu düşüncələrə təkan verirdi; onlar isə öz növbəsində Azərbaycanın intellektual elitasının onun üçün yeni olan dünyagörüşü və həyat fəaliyyətinin Avropa standartlarına meyillənməsinə səbəb oldu. Azərbaycan şərq intellektual və bədii mədəniyyətinin qərb dəyərlərinə qovuşması ilk maarifçilərin adları ilə bağlıdır. Dini praktika, xüsusən də cəmiyyətin şiə həyatı əsas və davamlı müzakirə və tənqid obyektinə çevirildi. Mədəni-maarifçilik missiyası öz məqsədlərini reallaşdırmanın müəyyən mərhələsində daha təsirli və praqmatik fəaliyyət formasına- siyasətə ehtiyac duyur. Cəmiyyətin siyasi sahəsinin formalaşmasının ilkin mərhələsi bu missiya ilə şərtlənir. Öz həllini gözləyən sosiomədəni problemlərin siyasi diskursu praktik əməllər proqramıdır. Bu proqram seçilmiş inkişaf modelinin əsas müddəaları ilə uzlaşmalıdır.

Din- insana uşaqlıqdan yeridilmiş və ya şəxsin şüurlu seçim forması kimi ən qədim kimlik formalarındandır. Xüsusilə, monoteist din şəraitində o, özünütanımanın əsas faktoruna çevirilir.

Azərbaycanda islamın yayılmasının öz xüsusiyyətləri var və müxtəlif tarixi olaylardan sonra şiəlik hakim mövqeni ələ alır.

Rus imperiyası regionda formalaşmış identikliyin əsaslarını dağıtmaq üçün konkret addımlar atırdı. Yerli elitaya qarşı yönəlmiş kəskin repressiya və islahatlar bu tədbirlərin başında gəlir. A.Balayev bu məsələyə toxunaraq yazır: "Şimali Azərbaycan torpaqları Rusiya imperiyasına qatılan hələ ilk illərdən, əsasən, İrəvan, Naxçıvan, Qarabağ, Şuragel, Pampak və Loridən çoxu azərbaycanlı olmaqla 100 mindən çox müsəlman əhali başqa ərazilərə köçürüldü" [5, s. 23]. O dövr üçün bu, ruhani və dünyavi elitanın yeridolmaz itkisiydi. Azərbaycan icmasının özidentifikasiyasında bu elitalar həlledici rol oynayırdı.

Müstəmləkə şəraitində qərb azadlıq dəyərlərinə qarşı həssas yeni milli ziyalıların meydana çıxması parçalanmış halda olan milli şüurun inkişafına mane olan dar ənənə çərçivəsini aşmağa imkan verdi.

Milli özünüdərki refleksiya sahəsinin genişlənməsində M.F.Axundov və sələflərinin xidməti böyük olmuşdur.

Sovet siyasi diskursunda ancaq neqativ çalarlarda təsvir olunan millətçilik, əslində (xüsusən formalaşma zamanı) "qapalı" ənənəvi cəmiyyətin dağılmasından öncəki yeganə mümkün özünütanıma nöqtəsidir. Bütövlükdə həssas olan bu nöqtə sinergetika terminlərində bifurkasiya nöqtəsi hesab oluna bilər və ondan keçərək inkişafın tamamilə yeni perspektivlərini, həyat tərzinin yeni sosiomədəni modellərini açmaq mümkündür. Zənn etmək olar ki, Rusiya imperiyasının məmuru olmuş Axundov millətçilkdən, etnik-konfessional paradiqmadan son dərəcə uzaq şəxs olmuşdur. Amma paradoks ondadır ki, Axundov öz fəaliyyətində elə "sim"lərə toxunur ki, bu səslərin qamması millətçilik melodiyası yaradır. Sözsüz, sonda millətçilik təhsili yaymaqla "ayrıca ölkədə cənnət yaratmaq" iddia edən sovet sosializmi kimi utopiyaya çevirilir. Amma bu qəmli sonluğa yetişənə kimi terminin siyasi şərhində öz ilkin məzmunundan ardıcıl sapma baş verir.

Axundovun maarifçi proqramında vahid inteqrasiya etmiş Azərbaycan cəmiyyətinin formalaşma zərurəti ifadə olunur. Bu cəmiyyəti təmsil edən azad şəxsiyyətlər özlərini müəyyən dil, mədəniyyət və tarixlə, insan hüquq və azadlıqlarını qəbul edən konstitusiya təsis etmək zərurətindən çıxış edən liberal qanunvericiliklə özdəşdirir.

Maarifçilik özünüdərk, xalqın vəhdəti və sosiomədəni inteqrasiyasının konsolidasiya əsaslarının formalaşma mərhələsi kimi zaman faktorunu, tarixin özünü kəskin formada "yaşayır". Zaman, tarix fasiləsiz olaraq sosial məzmunla "zənginləşir", öz yaradıcı dövrünü başa vurmuş mif və eposun qapalı xronotop tsiklllərindən qurtulur. Bu proses zəruri şəkildə xalqın ilk ardıcıl tarixin meydana çıxması ilə müşayiət olunur- etnogenezin mifoloji konsepsiyaları tarixi konsepsiyalarla əvəzlənir. Azərbaycan maarifçiliyində bu işi Azərbaycanın ilk ümumi tarixi- "Gülistani-İrəm"in (1841) müəllifi A.Bakıxanov reallaşdırmışdır. Rəsulzadə tarixi milli dldə təhsil sistemi vasitəsi ilə öyrənmənin önəmini xüsusi vurğulayır. Bu, bütün xalq üçün vahid şüur formalaşması

faktoru kimi də çıxış edə bilər. "Millətin tarixini bilmək..." məqaləsində o yazır: "Öz millətinin tarixini bilmədən inkişaf faktorunu təsvvür etmək mümkün deyil. Mədəni millətlərdə önəmli dərslərdən biri vətən və mədəniyyət tarixidir " [10].

Tiranlıq və despotizmlə mübarizə, yəni orta əsrlər mentallığı ilə mübarizə, istənilən maarifçiliyin cəbhə afişasıdır. Azərbaycanda soisal-siyasi baxımdan despotizm və tiranlığın ilk tənqidçiləri Qasım bəy Zakir və Mirzə Şəfi Vazeh olmuşlar. Amma Rəsulzadənin yaşayıb fəaliyyət göstərdiyi dövrdə orta əsrlər tradisionalizminin bu mənfi xüsusiyyəti hələ də o qədər güclü idi ki, onlara qarşı maarifçilərin və yaranmaqda olan partiyaların "ikinci dalğa" mübarizəsi başlamışdı. Fikrimizcə, Azərbaycan maarifçiliyinin əsas xüsusiyyəti Rusiya müstəmləkəçiliyi ilə bağlı partlayış təbiətindədir. Məhz bu xarakter ölkəni ənənəvi şərq inkişaf yolundan kənara çıxarır. Azərbaycan maarifçiliyi bir-birindən önəmli ölçüdə fərqlənən iki sivilizasiyanın toqquşması nəticəsində sosiomədəni şoka cavab olaraq yaranmışdır. Maarifçiliyin genişlənməsi iki zidd mədəniyyət, din, ənənə və mentallığın kəskin mübarizəsi fonunda baş verib və əslində Şərq və Qərb arasında görüş və dialoqun ikin formalarından hesab oluna bilər.

Axundovun tənqidlərinə sadəcə Azərbaycan gerçəkliyinə aid etmək olmaz. O, bütövükdə şərq despotizmini hədəf alır, mütəfəkkirə yaxşı bəlli olan Türkiyə və xüsusən İran fikir cəbhəsində cəmlənir. İranda sosiomədəni atmosfer Azərbaycandakının eynisi olmasa da əhəmiyyətli dərəcədə yaxındı. M.F. Axundov və M.Ə. Rəsulzadənin İran və Türkiyənin siyasi və sosiomədəni həyatına təsirini müqayisə etmək xeyli maraqlı olardı. (Əlavə.1).

Axundov islamın ilk şüurlu və ardıcıl reformatorlaından, nəzəri də olsa İslam "protestant"larından birincilərdəndir. Onun müsəlman "protestantizmi" çox aşkardır və o qədər inqilabidir ki, çox vaxt bu haqda susurlar.

Axundov özünün müsəlman ölkələri üçün siyasi dəyişim layihələrində Rusiya imperiyasının hüquqi normaları ilə yetinmir, nəzərini konstitusion quruluşun qərarlaşdığı Avropa ölkələrinə çevirir. Eyni zamanda Axundov müsəlman mütəfəkkirlər arasında konstitusionalizm və islam normalarını uzlaşdırmağa cəhd edən ilk müəllifdir. Daha sonra İranda konstitusion quruluşun formalaşmasında onun ideyaları, sözsüz ki, böyük rol oynamış, təklif etdiyi latın əlifba variantı Türkiyədə qəbul edilmiş, bu ölkələrin dünyəvi inkişaf yoluna qədəm basmasında əhəmiyyətli rol oynamışdır. Yaranmaqda olan Azərbaycan elitasına birbaşa təsir göstərməklə onları həm qabaqlamış, həm də ruhani inkişaf yolunu müəyyənləşdirmişdi.

Əgər Axundov maarifçilik missiyasının "nəzəriyyəçisi" mövqeyini tutursa, H. Zərdabi öz gücünü bu işin praktik reallaşmasına yönəldir. O, milli dildə ilk qəzet olan "Əkinçi"nin baş redaktoru kimi Azərbaycanda jurnalistikanın əsaslarını qoyur, qadın təhsili təbliğçisi kimi "Qafqaz müsəlman qadınlarının atası" ünvanını alır. "Nicat" maarifçi cəmiyyətin əsasını qoyan Zərdabi eyni zamanda müsəlmanlar arasında savadlılığı yayan "Nəşr-maarif"in qurucusudur. Hər yerdə maarifçilik ideyalarını yayaraq bilik və elmin praktik faydasından, həyatla əlaqəsindən söz açır, biliklə yanaşı konkret peşə verən yeni növ məktəbləri müdafiə edirdi. Nəhayət, 1873-cü ildə o, ilk Azərbaycan teatrının da qurucusu kimi tarixə düşür. Teatr həvəskar tamaşaların əsasında yarandı.

Əvvəldə də qeyd etdiyimiz kimi azərbaycanlıların kimlik məsələsinə biganəliyini ölkənin istilası gedişində xalqın dünyavi və ruhani elitadan ayrı salınması ilə bağlamaq olar.

Hansısa 150 il əvvəl şimali azərbaycanlılarda kimlik müəyyənləşdirmə müxtəlif dini-yerli, etnik dəyərlərin qarışımı ilə şərtlənirdi. Bununla bağlı A.Balayevin müşahidələri maraq doğurur: "Hələ XIX əsrin ortalarına qədər azərbaycanlıların özünüdərki pilləli sistemə malik idi ki, onun vacib komponentləri aşağıdakılardı: 1. Konfessional (islam) makroarealına mənsubluğun dərki; 2. Türk dil tayfa icmasına aidlik; 3. Konkret türk xalqına mənsub olmaq - azərbaycan türkü olmaq; 4. Konkret regiona aid olmaq (şirvanlı, naxçıvanlı, qarabağlı və s.); 5.daryerli (yerliçilik) mənsubluq və səciyyə" [5, s. 30]. Demək olar ki, Şimali Azərbaycanda sovet hakimimiyyəti qurulanadək, eləcə də sovet hakimiyyətinin ilk on ili

ərzində bu mürəkkəb etno-konfessional kimlik sistemində müsəlman ümmətinə mənsubluq xalqın özidentifikasiyasında əsas yönləndirici olaraq qalırdı. Yaranmış bütün milli partiya və təşkilatlar bu faktı öz proqram sənədlərində nəzərə almalı və qeydə almalı idilər. Bəzən məsələ bütün Rusiya müsəlmanlarının vahid cammatda birləşməsini elan etmək səviyyəsinə qalxırdı.

Azərbaycan maarifçiliyi yeni mədəniyyətin inkişafı və Azərbaycan xalqının özünüdərk prinsiplərinin formalaşmasının əsaslarını qoydu. Bu mənada Ə. Əhmədovla razılaşmaq lazım gəlir: "Azərbaycan maarifçiliyinin fəlsəfəsi oyanmaqda olan özünüdərk fəlsəfəsidir. Milli reallığın nəzəri dərki kimi onun əsası özözündədir. Avropa mənşəyi anlayışı onda ancaq milli mövzunu dilə gətirmək üçün istifadə olunur; onların seçimi və adaptasiyası konkret gerçəkliyin tələb və şərtlərinə görə baş verirdi; onlardan istifadə avropa mənşəli ideya və nəzəriyyələri sadəcə milli zəminə gətirmək deyildi, öz reallığını dünya tarixinə, öz fəlsəfəni dünya fəlsəfəsi məcrasına salmaqdı" [3, s.290].

Bununla belə bu mövqeni mütləqləşdirmək doğru olmaz. Maarifçilərin çoxu Qərbdə təhsil alaraq özlərini Avropa dünya seyrinin ardıcılları hesab edirdilər.

Azərbaycan Maarifçiliyi milli siyasi özünüdərkin proloqudur. Daha sonra etnik, formalaşmış sosiomədəni model əsasında cəmiyyətin özünüdərkinin və yenidən təşkilinin modernləşmiş proyektini həyata keçirməyə cəhd edən Azərbaycan mənəvi elitasının həm də milli özidentifikasiyasına çevrildi və Şərqdə sosial-siyasi həyatda özünə qərb standartları seçmiş ilk ölkələrdən biri oldu. Bu seçim böyük ölçüdə Azərbaycanın gələcəyini təyin elədi.

Tədricən "islam intibahı", milli təşkil proqramı çərçivəsində, eləcə də konstitusionalizm rüşeymləri ilə 2 cərəyan formalaşır: 1. Bütün Rusiya müsəlmanları üçün mədəni muxtariyyət əldə etməyə yönəli (onun başında diasporası ən böyük, ərazi baxımdan ən çox səpələnmiş müsəlman xalqı- tatarlar dururdu) və 2. azərbaycanlıların başçılıq etdiyi federativ quruluşu hədəf alan hərəkat (ayrılıqda müsəlman xalqlarının müstəqillik yönündə ilk addımları). Bu yolda panislamizm – Azərbaycanda azadlıq hərəkatının evolyusiyasında sadəcə keçid mərhələsidir (amma əslində həm də çox vacib mərhələ. Panislamizm obyektiv qiymətləndirsək, konfessional fərqlərin ekumenik devalvasiyası, sünniliik və şiəlik arasında ziddiyyətlərin aradan qaldırılması praktikası, müsəlman cəmiyyətinin ikin konsolidasiya əsasıdır). Bu ideologiya başlanğıcda Avropada millətçilik ideyalarının təsiri altında panturanizmə- ümumtürk dil identifikasiyasının qərarlaşması və bütün türk xalqlarının birləşməsi ideyasına meyllənir.

Amma panturanizm özü aralıq mərhələ kimi təzahür edir və Azərbaycan millətçiliyinə doğru yolu davam etdirir. Tədricən milli-azadlıq hərəkatının can atdığı idealın- milli Azərbaycan dövləti idealının yetərincə aydın obrazı formalaşır. Bu dövlət demokratikdir (Azərbaycan milliyyətçiləri başqa dövlət quruluşunu ağıllarına belə gətirmirdilər), Azərbaycan, müsəlman (şiə) zəmininə gətirilmiş demokratik dünyəvi qərb dövlət modelidir. Maraqlıdır, Azərbaycan bolişevik istilasına məruz qalmasaydı, bu ideyalar Azərbaycan zəminində nəyə dönüçəcəkdi... İslam bu dövlətdə mədəniyyətin əsası və dövlətdən ayrı başlıca dini təşkilat idi.

Milli-azadlıq hərəkatı başqa türk xalqları ilə, ilk növbədə Türkiyə ilə sıx ittifaqda idi.

Rus inqilabı və Rusiya imperiyasının dağılması Azərbaycan milli elitasına öz idealını gerçəklətməyə cəhd etmək imkanı verdi. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası-müsəlman Şərqində ilk respublika və müsəlman xalqının dindən ayrı salınmış ilk dövləti (Əlavə 2) elan olundu. Nəzərə alsaq ki, hətta bolişeviklər "islam faktoru" ilə hesablaşmalı, müsəlman ruhaniləri ilə kompromisə getməli oldular, o zaman bu fakt o dövr Azərbaycan siyasi elitasının Avropa demokratiya standartlarını dəstəkləmə səviyyəsindən xəbər verir (Əlavə 3). Gizli deyil ki, o dövr müsəlman ruhaniləri ən yaxşı təşkil olunmuş və hörmətli zümrə idi. Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi fəaliyyətini davam etdirirdi. Azərbaycan əhalisi də şəxsi avtoritet ətrafında vahid tam şəklində birləşmişdi. Üstəlik, bu qüvvə Rusiyanın regionda təsirini müvəqqəti dəf edərək problemləri həll etmək və birləşmək çağırışları edə bilə-

cək bütün Qafqaz müsəlmanlarının qurultayını çağıra bilərdi. Panislamizm bu qüvvənin ideologiyası kimi yaranmaqda olan millətçilik toqquşmaya məhkumdu. Çünki, onlar mahiyyətcə zidd, xalqın konsolidasiyası uğrunda rəqabət aparan konsepsiyalardır.

ADR-in bayrağı məlum üçlü simvolikanı əhatə edir: türkçülük, modernləşmə və islam. İslam Azərbaycanın bütün əvvəlki mədəni və siyasi elitasının proqram tələbi idi. Doğrudur, ADR-in ilk dövrlərində paralel olaraq iki rəsmi dildən – bu, əvvəlki inkişaf reallıqları ilə bağlı idi- istifadə edilirdi. Həmin dövrün hökumət və parlament sənədləri buna sübutdur. Bununla belə hakimiyyət dövlət strukturlarının işində və cəmiyyət həyatında Azərbaycan dilinin rolunu mərhələli şəkildə canlandırmağı hədəfləyən proqram hazırlamışdı.

ADR özündən sonra konstitusiya qoyub getməyib, belə ki heç Təsis məclisi də keçirə bilmədi. Bununla belə gələcəyə yönəlmiş siyasi məqsədlər 21 iyul 1919-cu ildə çap olunmuş Təsis məclisi haqda Müddəalarda aydın ifadə olunmuşdu. Bu sənədin ümumi müddəalarənın birinci maddəsinə görə "Təsis məclisi xalqın cinsi ayrı-seçkilk olmadan bərabər seçki hüququ əsasında birbaşa seçkilər və gizli səsvermə yolu ilə proporsional nümayəndəlik başlanğıcının tətbiqi ilə seçilmiş nümayəndələrdən təşkil olunur" [2, s.71]. Göründüyü kimi ADR hakimiyyətinin demokratik qərarları arasında qadınlara tam seçki hüququ verilməsi əsas hədəflərdəndir və beləcə Azərbaycan maarifçiliyi ideallarına sadiqlik nümayiş olunur.

Maraqlıdır ki, ADR hakimiyyəti kilsənin (məscidin) dövlətdən ayrılması məsələsindən özünəməxsus şəkildə yan keçir: dövlət və dinin qarşılıqlı avtonomiyası məsələsi qaldırılmırdı. Azərbaycan vətəndaşlığına qəbul üçün and mətnində belə sözlər yer almışdı: "Uca Allaha and içib söz verirəm", "bu andın yerinə yetməsində Allah mənə kömək olsun" [2, s.185]. İslam dini ilə bağlı xüsusi məsələlərdə qərar verilməsi zamanı şeyxülislam və müfti də bərabərhüquqlu səs imkanı ilə hökumət iclaslarında iştirak edirdilər. Cümə yenidən bayram günü elan edildi (Əlavə 4). Dövlət dini bayramların keçirilməsini nizamlayır, müfti və şeyxülislama maaş təyin edirdi. Dövlət başqa konfessiyalara (erməni, yəhudi, pravoslav, katolik) qarşı da eyni münasibət sərgiləməklə onları maddi olaraq dəstəkləyirdi. ADR-in dünyavi xarakteri şübhə doğurmasa da islamçılar müstəqil respublikanın rəhbərliyini məhz bu səbəbdən ciddi tənqid edirdilər. Rəsulzadənin dini institutları dövlətdən ayırmaq barədə israrından sonra Azərbaycan Parlamenti qanun səviyyəsində bu məsələni rəsmiləşdirdi.

M.Ə Rəsulzadə milli konsolidasiya- azərbaycançılığın inkişafına mane olan panturanizmə qarşı da eyni sərtlikdə qarşı çıxırdı. O qeyd edirdi ki, "romantik, siyasi panturanizm tarixə qovuşmuş, ancaq real, konkret-milli məqsədləri olan türkçülük var". Bu o demkdi ki, "öz milli siyasəti çərçivəsində qalaraq və hər şeydən əvvəl öz mövcudluğunu qorumaq üçün öz gücünə güvənmək və öz xalqının rifahı üçün çalışmaq lazımdır; bütün türk xalqları üçün vahid dövlət yaratmaq kimi xəyali, utopik arzu dalınca qaçıb onu dağıtmaq yox" [12, s.53].

M.Ə.Rəsulzadənin fikrincə, "romantik panturanizm" ideyaları ancaq türk xalqlarının mədəni irsinin qorunması uğrunda mübarizədə öz əhəmiyyətini saxlayır.

O, türkçülüyü siyasi yox, "elmi-fəlsəfi-estetik cərəyan" kimi qəbul edir və türk xalqlarının mədəni birliyi uğrunda mübarizə metodu hesab edirdi. "Biz siyasətdə- xalqçı, mədəniyyətdə- türkçüyük!" [6, s. 127].

Və nəhayət, Bakının müstəqil Azərbaycan üçün əhəmiyyəti məsələsnə toxunan Rəsulzadə yazırdı: "Bütün siyasi, iqtisadi, ictimai institutlar, ruhani müəssisələr, məktəb və xeyriyyə cəmiyyətləri, mədəniyyət mərkəzləri, müsəlman nəşriyyatları- hamısı Bakıda cəmlənib. Bakı eyni zamanda bizim ziyalıların toplaşdığı mərkəzdir. O, bütün maddi və əxlaqi qüvvələri birləşdirib müstəqil ölkə yaratmağa imkan verən mərkəzdir"[6].

Beləliklə, M.Ə.Rəsulzadədə millətçiliyinin spesifikliyi bu sxem üzrə inkişaf edir: müsəlmanlar-türklər-azərbaycanlılar. Bu sxem millətin konfessional, etnik və siyasi kimliyini əhatə edir.

Rəsulzadə "Azərbaycançılıq nədir?" məqaləsində yazırdı: "Azərbaycançılıq- müstəqilliyə can atımdır. Azərbaycançılıq- böyük türk irqinə mənsub bir millətin müstəqillik uğrunda şərəfli mübarizəsidir.

Eyni zamanda o, xalq və milli hakimiyyət uğrunda mədəni və azad hərəkatdır" [6, s. 68].

1902-ci ildə Rəsulzadə "Müsəlman gənclər hərəkatı" adlı dərnək yaradır. "Dərnayi qurmaqda məqsəd onların milli hissini gücləndirmək, doğma nitqi inkişaf etdirmək, öz yazıçılarımızın əsərlərini oxumaq, inqilab mövzusunda şeirləri əzbərləmək, mətbəədə çap edimiş vərəqələri yaymaq, fəhlələr arasında sistemli şəkildə azadlıqsevərlik və inqilabi ideyaları təbliğ etməkdir" (bax 13). Beləliklə, Rəsulzadə sadə bir maarifçi olaraq çıxdığı yolda (Zərdabinin dəfnində "bizə aydınlanma gərəkdir, aydınlanma, aydınlanma" dediyi nitqi ilə başlanan) müstəqil ADR-in qurulmasında həlledici rol oynayacaq "Müsavat" partiyasının başqanına çevirildi.

## Nəticə

1915-ci ildə M.Ə.Rəsulzadə "Bizim yolumuz" məqaləsini çap etdirərək Ə.Hüseynzadə və Ə.Ağaoğlunun məlum üçlük ideologiyasına izah verir: "Azad yaşayıb inkişaf etmək istəyən hər bir millət 3 əsasa dayanmalııdr: Dil, Din və Zaman...

Dilimiz səbəbinə bizlər türklərik, bu, bizim milliyyətimizdir... Dincə- müsəlmanıq. Zamanca texnika, elm dövründə yaşayırıq. Yəni bu, o deməkdir ki, əməllərimizdə 3 əsasa dayanmalıyıq- türkləşmə, müasirlik, islamlaşma" («Açıq söz», № 1, 2 oktyabr 1915).

Bu dövrdə (1913) Rəsulzadə milli özünüdərk faktoru kimi dil məsələlərinə həsr olunmuş xeyli məqalə çap etdirir ("Sadə dil-yeni dil", "Yeni dlçilər- türkçülər" və s.). Bu nəşrlərdə o, millətin formalaşması üçün danışıq və yazılı dil arasında uçurumu aradan qaldırmanın zərurətinə işarə edir (bax: 7).

"Biz, Azərbaycan türkləri, xalqın taleyində böyük mənəvi və maddi əhəmiyyəti olan *dili* az qala itirmişdik. Elə dövr olub ki, biz tamamilə iranlaşmışıq. Türk ədəbiyyatından xəbərimiz olmayıb. Türk dili savadsız adamların qisməti hesab olunmuş, seçilmişlər ərəb və fars dillərini bilməklə öyünmüşlər. Sonra M.Füzulinin təsiri altında böyüyən yeni türkdilli şairlərin Azərbaycan nəsli bu təhlükəli axının qarşısını alaraq, yaxşı, ya pis- yeni ədəbi dili formalaşdırdılar" (M.Ə.Rəsulzadənin "Dil vacib ictimai faktor kimi" məqaləsindən).

"Əgər biz dili milli ruhun daşıyıcısı və ünsiyyət vasitəsi kimi görmək istəyir və bütövlükdə cəmiyyət və millətin birlik və tərəqqi faktoru hesab ediriksə, yazılı və şifahi nitq arasında fərqləri azaltmalıyıq".

Rəsulzadə "İqbal" qəzeti, "Şəlalə", "Bəsirət", "Dirilik" jurnallarında nəşr etdirdiyi məqalələrdə elmi olaraq əsaslandırır ki, milləti din yox, dil və mədəniyyət birləşdirir, müsəlmanlıq milli yox, dini kateqoriyadır.

Rəsulzadənin "Milli dirçəliş" döngüsünün bütövlükdə məzmunu bu fikirlə ifadı oluna bilər- Dirçəlişlərin ən dəyərlisi- milli olandır. 1914-cü ilin payızından başlayaraq 3 ay müddətində Rəsulzadə milli dirçəliş mövzusunu işləyir. M.Ə. Rəsulzadə azərbaycanlıların yolunu belə təsəvvür edir: "Biz dilimiz səbəbinə türk, milliyyətcə- türklərik. Məqsədimiz ilk növbədə- türk ədəbiyyatının, türk sənətinin, türk tarixi və türk mədəniyyətininin müstəqilliyini saxlamaqdır. Möhtəşəm türk mədəniyyəti- bizim müqəddəs məqsədimiz, yolgöstərən parlaq ulduzumuzdur" (Bax: "Bizim seçdiyimiz yol").

"Millət nədir? Mən əminəm ki, millət dil, tarixi əlaqələr, adət və ənənələrin vəhdəti faktoruna əsaslanır. Bəzən tatardan milliyyətinin soruşan türk belə cavab alır: mən- müsəlmanam. Bu, səhv fikirdir. Necə ki xristian millət yoxdur, elə də müsəlman milləti. Müsəlmanların böyük evində türklər, farslar və ərəblərin ayrı-ayrı mənzilləri olmalıdır"

Rəsulzadə belə hesab edirdi ki, dövlətçilik iki əsasa dayanmalıdır- bir tərəfdən, ümumbəşəri maraqlar və digər tərəfdən, ayrıca millətlərin azadlığı və müstəqil inkişafı (bax: 13).

1923-cü ildə onun "Azərbaycan Cümhuriyyəti" və "Dövrümüzün Siyavuşu" və eləcə də "Müstəqillik ideologiyası və gənclik" əsərləri İstanbulda çap olunur. Bu əsərlərdə Rəsulzadə Azərbaycanın yeni dövr və ən yeni dövr tarixində baş verən hadisələrin maraqlı təhlilini verir. Konkret tarixi faktlar əsasında sübut edir ki, 1918-ci ildə ADR-in qurulması hadisələrin təsadüfi axışının nəticəsi yox, Azərbaycan türklərinin milli çiçəklnmə və siyasi oyanış proseslərinin qanunauyğun nəticəsidir [bax: 1, s.30-31].

M.Ə. Rəsulzadə qeyd edir ki, Azərbaycanın müstəqilliyinin siyasi axını- müsavatçılıq- "milli ideologiyanın sintezidir və özündə müsəlmançılığın və türkçülüyün, xalq-sosialist yönümlü sosialist proqramı və Azərbaycan və bütövlükdə Qafqazın Rusiyadan qopmasının inqilabi taktikasının ideya ənənələrinin modernləşmiş anlayışlarını qoruyub saxlayır ". 1936-cı ildə öz siyasi proqramını inkişaf etdirərək yazırdı: "müsavatçılıq- Azərbaycan vətənpərvərliyidir, ümumbəşəri sivilizasiya və böyük türk mədəniyyətinin ali idealları ilə üzvi vəhdətdə olan cümhuriyyət, azadlıq və milli müstəqillik ideallarına sədaqətdir" [Bax: 6, s.32].

"Müsavat"ın ideologiyasında pantürkizm və panislamizm kimi siyasi doktrinaların heç bir təsiri yox idi. [11, s.10].

Beləliklə, iddia edə bilərik ki, Məhəmməd Əmin Rəsulzadə Azərbaycan tarixində o şəxsiyyətdir ki, milli şüurun nəzəri inkişafını bütöv Azərbaycan (Şimali Azərbaycan nümunəsində) kontekstinə gətirən ilk mütəfəkkir kimi tarixə düşmüşdür.

**Ədəbiyyat və qeydlər:**

1.Абуталыбов Р.А. Мамед Эмин Расулзаде и Кавказская Конфедерация. - М.: Издательство «Социально-политическая МЫСЛЬ», 2011. - 48 с.
2.Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (Сборник документов) Б.:1998, с.71.
3.Ахмедов Э. М. Философия азербайджанского Просвещения. Б., Азернешр, 1983.
4.Ахундов М. Ф. Избранные философские произведения. Б.:Азернешр, 1982.
5.Балаев А. Азербайджанское национальное движение в 1917 - 1918 гг. Б .:1998.
6.Балаев А. Мамед Эмин Расулзаде (1884–1955). М.: Флинта,2009. - 288 с.
7.Бергман Игорь. Мамед Эмин Расулзаде – политик, ученый, поэт – https://pressunity. org/archives/19349
8.Багирова И. С. Политические партии и организации Азербайджана в начале XX века. Б.:1997, с.143.
9.Журнал «Шелале», №27, 10 августа 1913 г.
10.Журнал «Дирилик», №3, 1 января 1915 г.

**Qeyd 1. Vəsiyyət**

"**1.** Nə özünüzü, nə də başqalarını aldatmadan layiq olmayan şəxsi tarixi şəxsiyyət rütbəsinə qaldırmayın. Bu şəkildə davransanız, şəxsi təcrübəmdən deyirəm, elə özünüzə problem yaratmış olacaqsınız.

«**1.** Не обманывая ни себя, ни других, не возводите недостойную личность до ранга исторической. Если поступите таким образом, говорю по собственному опыту, себе же создадите проблемы.

**2.** Yaratmaq istədiyiniz dövlətin əsasları köhnəlmişsə, inqilab qaçılmazdır; inqilabdan keçərək öz milli dövlətinizi qurun.

**3.** İmkan ölçüsündə siyasi nəzəriyyələr kontekstində fikir yürüdün. Amma bu düşüncələr sizin inanclarınızdan kənara çıxmasın.

**4.** Siyasət sahəsində nə qədər mühafizəkar olsanız da orta yolu seçin və ya çox əndişələnməyin, qarşılıqlı suçlamalardan vaz keçin.

**5.** İşdi şayət siz İranda nazir və ya başqa yüksək posta yüksəlmisinizsə, məntiqli olun. Elə işlər tutun ki, sizin fəaliyyətiniz ölkənizin azadlığına xələl gətirməsin.

**6.** İşdi şayət millət vəkili olsanız, öz öhdəliklərinizi bilin və onlardan kənara çıxmayın.

**7.** Allah eləməsin, istəmədən jurnalist olsanız, sərxoş vəziyyətdə nəsə yazmayın, əks halda milli mətbuatı biabır etmiş olarsınız.

**8.** İdarəetməyə və Milli Məclisə elə adamlar seçin ki, düşünə, vicdanla qərar verə bilsinlər, başqalarının ağzına baxıb, sonra da əks fikirlər səsləndirməsinlər.

**9.** İşdi şayət Vətənə layiqincə xidmət edib tanınmış şəxsə çevrilə bilmişsəniz, çalışın, əməlləriniz qazandığınız etimada uyğun olsun. Əks halda xidmətlərinniz qara qəpik etməz.

**10.** Xidmətlərinizə görə ən yüksək posta oturtsalar belə, ən ləyaqətsiz adamın aşağılanmasına izin verməyin. …» «Ирани-нов» qəzeti, №206, 17 may 1910.

**Qeyd 2:**.M.Ə. Rəsulzadə yazır ki, ADR "türk dünyasında ilk dövlət hesab olunmalıdır; belə ki, başqa türk dövlətləri dini əsasda qurulub, ADR isə milli-mədəni özünütəyin, türk milli-demokratik dövlətçilik ənənəsi bazasında yaradılıb"

**Qeyd 3:** ADR-in bu istəkləri Azərbaycanın müstəqilliyini elan edən hələ ilk sənəddə qeydə alınır:

1. Bundan sonra Azərbaycan xalqları suveren hüquqlar daşıyıcılarıdır, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət Azərbaycan isə tamhüquqlu müstəqil dövlətdir.
2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Demokratik Respublikadır.
